# EKRANIN PARLAQ ULDUZU



**"Dağlarda döyüş", "Sahilsiz gecə", "Arxadan vurulan zərbə", "Yeddi oğul istərəm", "Atları yəhərləyin"... Bu filmlərdə Şahmar Ələkbərov səsi, istedadı ilə Azərbaycan kino tarixində bənzərsiz iz qoyub. Sənətkar aktyor, ssenarist, səs aktyoru, mətn oxuyan, həmçinin rejissor kimi fəaliyyət göstərib. O, teleradio sahəsində də çalışıb.**

23 avqust 1943-cü ildə Gəncədə anadan olan Şahmar Ələkbərovun atası Zülfüqar kişi əslən cəbrayıllı, anası İzulət xanım isə Tiflisdən idi. 9 yaşı olan zaman ailəsi ilə birlikdə Gəncədən Bakıya köçən Şahmar orta məktəbi bitirdikdən sonra ailəsinə sənədlərini Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə verəcəyini deyir. Lakin bunu etmir və anasının sərt reaksiyası ilə qarşılaşır. Çünki İzulət Ələkbərova Azərbaycanda ilk pedaqoji texnikumun birinci məzunlarından idi və oğlunu səhnədə görmək istəmirdi. Ancaq Şahmar Ələkbərov öz yolundan dönmür və qısa ömür yaşamasına baxmayaraq, canlandırdığı obrazlarla, çəkdiyi filmlərlə adını kino tariximizə qızıl hərflərlə yazır.

O, teatrşünas Kamilə Ələkbərova ilə ailə həyatı qurur. İlk dəfə Şahmar Ələkbərov Kəmalə xanıma elçi göndərən zaman valideynləri qızlarının aktyorla ailə qurmasına razı olmurlar. Dörd ildən sonra o, yenidən elçi göndərir və nəhayət, razılıq alınır. Kəmalə xanımın nənəsi əslən şuşalı olduğundan elçi göndərən oğlanın da qarabağlı olduğunu biləndə evliliyə icazə verir. Aktyorun iki əkiz qızı (İzulət və Ləman) dünyaya gəlir.

Şahmar Ələkbərov Teatr İnstitutunun aktyorluq fakültəsində Rza Təhmasibin kursunda təhsil alıb. 1964-cü ildə Azərbaycan İncəsənət İnstitutunu bitirib. Aktyor hələ III kursda oxuyarkən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına işə götürülür. Bundan sonra məşhur sənətkar Adil İsgəndərov onu kinostudiyasının nəzdində yaratdığı "kino aktyorluğu" studiyasına dəvət edir. Teatrda ilk dəfə Uilyam Şekspirin "Lope de Veqa" tamaşasında çıxış edir. "Ustalar" tamaşasında oynadığı rola görə böyük tamaşaçı auditoriyasının rəğbətini qazanır. Daha sonra gənc aktyor "Dağlarda döyüş" filminə çəkilir.









Oğul ("İntizar"), İman ("Axırıncı aşırım"), Arif ("Həyat bizi sınayır"), Azad ("Bakıda küləklər əsir"), Qatır Məmməd ("Gəncəbasarlı qisasçı"), Feyzi ("Firəngiz"), Gündüz Kərimli ("Arxadan vurulan zərbə"), Cavidan ("Babək"), Nuru ("Qəribə adam"), Tahir ("Gözlə məni"), Xaliq ("Qocalar, qocalar..."), Cümşüd ("Avqust gələndə"), İbrahim ("Atları yəhərləyin") kimi bir çox obrazları canlandıraraq müxtəlif xarakterləri nümayiş etdirib. Öz istedadı, fərqli ifa tərzi ilə başqalarından seçilməyi bacarıb.

Ş.Ələkbərov Elçinin "Toyuğun diri qalması" povesti əsasında 1989-cu ildə ssenarisini yazdığı "Sahilsiz gecə" filmini çəkir. Film hazır olanda ciddi səs-küyə səbəb olur. Buna səbəb isə müharibə dövründə qadınların həyatında bəzi məqamların göstərilməsi idi. Studiyanın qarşısına toplaşan qadınlar piket keçirir, filmin ləğvini tələb edirlər. "Sahilsiz gecə" cəmi bir neçə dəfə nümayiş edildikdən sonra ekranlardan itir. Əslində isə film qadınların faciəsindən, bu yola düşməyə məhkum edilmələrindən və ona etirazdan bəhs edir. Aktyorun son filmi isə "Yük" adlanır.

Sənətkarın dostu, tələbə yoldaşı, teatr və kino aktyoru Tariyel Qasımov onun haqqında deyir ki, Şahmar Ələkbərov çox sakit, mədəni oğlan idi. Özü də çox yaxşı oxuyurdu. Eyni zamanda böyük sənətkar idi: "Aktyorluqda heç kim ona çata bilmirdi. Aktyor var, teatrda yaxşı rollar oynayır, amma kinoda çəkilə bilmir. Aktyor var, kinoda şedevr yaradır, teatrda iki addım yeriyə bilmir. Amma Şahmar həm teatr, həm kino aktyoru kimi dahi bir insan idi, vəssalam".

- "Qəzənfər dayı! Qurban olum, Qəzənfər dayı, ölmə! Ölmə, nolar, ölmə!".

- "Ağlama, kişi ağlamaz".

"Yeddi oğul istərəm" filmində Qəzənfər obrazını canlandırmış sənətkar izləyicilərin könlündə taxt qurub. Qəqəninin yaralı halda onu qucaqladığı səhnə tamaşaçılarda dərin hisslər yaşadıb. İstedadlı aktyor təkcə kinoda deyil, həyatda da gənc yaşda ölümün pəncəsinə düşüb. Şahmar Ələkbərov 49 yaşında həyata gözlərini yumub. Sənətkar yeddi il xəstəliklə mübarizə aparıb. Belə ki, aktyor dişini müalicə etdirərkən dili zədələnir və çəkilişlərdə soyuqladığı üçün xoraya çevrilir. Şahmar Ələkbərov ciddi müalicə kursları keçsə də, lakin heç bir nəticəsi olmur. 1992-ci ildə müalicə üçün Almaniyanın Hamburq şəhərinə gedir, burada da dərdinə çarə tapılmır. Bakıya qayıdan aktyor xəstəxanaya yerləşdirilir. Xalq artisti Şahmar Ələkbərov 12 avqust 1992-ci ildə vəfat edib.

Şahmar Ələkbərovun zəngin yaradıcılığı və sənət dünyasında qoyduğu iz, həmçinin səhnədə və ekranda canlandırdığı obrazlar onun xatirəsini bu gün də unudulmaz edir.

**Nurcan SÜLEYMANOVA, "Respublika".**